# BOLONİYA PROSESİ VƏ BOLONİYA DEKLARASİYASI

*Asif Nəbiyev,*
*Avropa Azərbaycan məktəbinin*
*riyaziyyat müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*asif.nebiyev@mail.ru*



*Açar sözlər: Boloniya prosesi, кredit sistemi, mobillik, zaçot vahidi, ixtisasların və sənədlərin tanınması, ömür boyu təhsil, təhsil məkanı.*

*Ключевые слова: Болонский процесс, кредитная система, мобильность, зачетная единица, признание квалификации и документов, образования в течение всей жизни.*

*Keywords: Bolonsky process, credit system, mobility, test unit a recognition of qualification and documents, education during all life.*

Son illərdə Avropaya inteqrasiya prosesi daha intensiv şəkildə inkişaf etməkdədir. Sərhədlər açılır, vahid iqtisadi zonalar yaranır, vahid valyuta tətbiq olunur. Belə bir vahid fonda isə ali təhsil sisteminin rəngarəngliyi vahid Avropa ideyası ilə bir araya sığmazdır.

Italiyanın, eləcə də Avropanın ən qədim universiteti hesab olunan Boloniya universiteti 1986-cı ildə özünün 900- illik yubileyinə hazırlaşan zaman o, bütün Avropa universitetlərinə müraciət edərək Böyük Universitet Xartiyasını qəbul etməyi təklif etmişdir.

Universitet rəhbərləri bu ideyani təşəbbüskarlıqla qarşıladılar və 1988-ci ildə yubiley mərasimi zamanı universitet təhsilinin universal və əvəzolunmaz qiymətini, həmçinin onların arasında olan sıx əlaqəni əks etdirən bu sənədi 80 ali məktəb rektoru imzaladı.

Tədricən Avropada ali təhsilin inteqrasiya prosesi universitet səviyyəsindən dövlət səviyyəsinə qalxdı. 1998-ci ildə Parisdə, məhşur Sorbonna universitetinin divarları arasında onun yubileyi zamanı dörd ölkənin (Fransa, Böyük Britaniya, Almaniya və İtaliya) təhsil nazirlərinin müşavirəsi oldu və ilk dəfə olaraq vahid Avropa təhsil məkanı ideyasi yarandı. Bundan bir il sonra, 1999-cu ildə Boloniyada otuz Avropa ölkəsinin təhsilə məsul nazirlərinin iştirakı ilə tarixi konfrans oldu. Onların qəbul etdiyi "Avropa ali təhsil zonası" deklarasiyası (19 iyun 1999-cu il) Boloniya prosesinin başlanğıcı oldu.Birinci dəfə Boloniya prosesinə qoşulan ölkələrin sayı 27 oldu.Sonralar Avropa təhsil nazirlərinin toplantısı iki ildə bir dəfə keçirilməklə müntəzəm xarakter aldı və bir cox ölkələr bu prosesə qoşuldular (2003-də Rusiya, 2005-ci ildə Azərbaycan).

Ümumiyyətlə Boloniya prosesi dedikdə ali təhsilin vahid Avropa zonasını yaratmaq prosesi başa düşülür.

## BOLONİYA PROSESİNİIN ƏSAS MƏQSƏDLƏRİ

Boloniya deklarasiyasının mətnində inteqrasiya prosesinin altı əsas məqsədləri göstərilmişdir.

***I.Asan başa düşülən və məqbul hesab edilən dərəcələrin qəbul edilməsi, o cümlədən ümumavropa diplom əlavəsini tətbiq etməklə.***

***II.İkipilləli ali təhsilin qəbul edilməsi.***

***III.Kredit sisteminin qəbul edilməsi.***

***IV.Mobilliyin təmin olunması.***

***V.Məqbul kriteriya və metodologiyaların işlənməsi məqsədilə ali təhsilin keyfiyyətini yüksəltmək üçün Avropa əməkdaşlığına kömək.***

***VI.Ali təhsil sahəsində ixtisasların və uyğun sənədlərin qarşılıqlı tanınması, ali məktəblərin muxtariyyətinin təmin olunması. Daha sonra bu prinsiplərin sayı artaraq 10-a çatdırılmışdır( əlavə prinsiplər).***

***VII.Doktorantura təhsili (ali təhsilin 3-cü səviyyəsi).***

***VIII.Ömür boyu təhsil (əlavə təhsil sistemi).***

***IX.Təhsilin cazibədarlığının yüksəldilməsi və Avropa dəyərlərinə yönüm.***

***X.Ümumavropa təhsil məkanı və tədqiqat məkanı.***

2004-cü ildə Boloniya prosesinə artıq 40 Avropa dövləti qoşulmuşdu. Böyük Britaniya, Almaniya, İtaliya, Fransa, Avstriya, Belçika, Bolqarıstan, Macarıstan, Türkiyə, Rusiya, Xorvatiya və s.

**BOLONİYA PRİNSİPLƏRİ (MƏQSƏDLƏRİ)**

## I. Diploma əlavələrin verilməsi

Diplom əlavəsinin modeli YUNESKO (UNESCO/CEPES) tərəfindən işlənmişdir. O, məzunlara ali təhsil haqqında diplomla bərabər pulsuz verilir. Onun əsas təyinatı ali təhsilin tipini və səviyyəsini maksimum şəffaf etməkdir. Diploma əlavənin 8 əsas bölməsi olur: diplomun sahibi haqqında informasiya, məzunun ixtisası haqqında, bu ixtisasın səviyyəsi, təhsilin məzmunu və alınan nəticələr haqqında informasiya, alınan ixtisasın funksional xarakteristikası, əlavənin ona verdiyi ölkədə sertifikatlaşması haqqında məlumat, ölkənin ali təhsil sisteminin təsviri, təhsil orqani və ya ali təhsil müəssisəsinin təşəbbüsü ilə əlavə informasiyalar. Bu bölmələrin hər birinin (axırıncıdan başqa) doldurulması məcburidir; uyğun informasiya olmadıqda isə bunun səbəbi göstərilməlidir. Bütün qeydlər həm milli dildə, həm də geniş yayılmış Avropa dillərindən birində aparılır (məsələn ingilis dilində).

Hal-hazırda real vəziyyət budur ki, müxtəlif ölkələrdə (bəzən hətta bir ölkə daxilində) alınmış ixtisasların müqayisəsi çətin olur. İkipilləli ali təhsilin olduğu ölkələrdə "mütəxəssis" diplomu anlayışını başa düşmürlər: bu bakalavrın analoqudur, yoxsa magistrin. Məsələn İsveçdə keçmiş ittifaq dövlətlərinin mütəxəssis diplomları magistr diplomuna bərabər tutulsa da, qonşu Skandinaviya dövlətləri Norveç və Finlandiyada bu bakalavr diplomunun ekvivalenti hesab olunur. Bəzən isə şübhə yaranır ki, diplomlu mütəxəssis natamam ali təhsilli şəxsdir.

Bu hallarda diploma əlavənin qeydləri diplom sahibinin ixtisası, hansı fənləri mənimsəməsini, kursların məzmunu haqqında məlumat verməklə diplom sahibinin hansı təhsil alması haqqında nəticə çıxarmağa imkan verir.

Diploma əlavə bu vacib informasiyaları özündə əks etdirməklə bərabər diplomu əvəz etmir və ali təhsilin başqa ölkələr tərəfindən tanınması üçün əsas deyildir.

Boloniya prosesi könüllülük prinsipinə əsaslanır və iştirakçılara heç bir tələb qoyulmur. Özünün qədim, milli təhsil ənənələri olan, dünya səviyyəli pedaqoqları olan Azərbaycan Respublikası da 2005-ci ildə Boloniya sisteminə qoşulmuşdur.

## II. Boloniya prinsipinin məqsədlərindən biri ikipilləli ali təhsilə keçməkdir

Ənənəvi 4-5 illik magistr təhsili əvəzinə 4 illik bakalavr və 2 illik magistr təhsili. Bəs ikipilləli təhsilin üstünlüyü nədən ibarətdir?

Müasir dövrdə biliklər öz aktuallığını tez itirir. Ona görə də bakalavriat məzuna nisbətən geniş hazırlıq verərək onu tamamlamağı, bilikləri, bacarıq və vərdişləri yeniləşdirməyi öyrədir. Magistratura isə daha dərin ixtisaslaşma verərək magistrləri əsasən elmi-tədqiqat və pedaqoji işlərə hazırlayır. Qəti şəkildə bakalavr tam ali təhsil hesab edilir və onlar bir çox işlərdə çalışa bilərlər.

Bəs boloniya prosesi bütün ixtisasların ikipilləli sistemə keçməsini tələb edirmi?

Bu haqda da fikirlər üst-üstə düşmür. Əksər ölkələrdə, eləcə də Azərbaycanda tibbi ali təhsil və hərbiləşmiş ali təhsil (hərbi məktəb, dənizçilik məktəbi və s.) öz ənənəvi birpilləli təhsil strukturunu saxlayır.

## III. Zaçot vahidinin (akademik vahid, kredit) daxil edilməsi nə məna daşıyır?

Zaçot vahidi ali təhsil sferasının özünəməxsus ümumi valyutasıdır (Kredit sözü buna əsaslanır) Avropada ECTS (European Credit Transfer Sistem, Avropa Kredit köçürmə sistemi). Bir zaçot vahidi, bir kredit təxminən 36 akademik saatdan (1 akademik saat 45 dəqiqəyə bərabərdir) ibarətdir. Zaçot vahidi iki əsas funksiyanı yerinə yetirir. Birinci funksiya tələbənin başqa ali məktəbdə verdiyi zaçotun hesaba alınması,ikinci funksiya isə yığım funksiyasıdır.

Tələbə müxtəlif səbəblərdən ali təhsili "hissə-hissə", həm də ali məktəbi dəyişərək ala bilər. Kreditlər toplanaraq müəyyən cəmə çatdıqda isə tələbə akademik dərəcə (bakalavr, magistr) ala bilər. Bir imtahandan qiymət almaq üçün mümkün 100%-dən minimum 60%-i yığmaq lazımdır. Məsələn mən əvvəllər çalışdığım, Azərbaycanda boloniya sistemini ilk tətbiq edən Xəzər Universitetində belə bir bölgü aparılır:

1)Aktivlik—————— 10%
2)Davamiyyət————— 10%
3)Quiz——————— 10%
4)Aralıq imtahan———— 35%
5)Yekun imtahan———— 35%

Bu bölgü nisbidir və müəllimin rəyi ilə faizlər dəyişdirilə bilər:

1)Aktivlik və avamiyyət—————— 15%
2)Quiz—————————————— 10%
3)Aralıq imtahan————————35%
4)Yekun imtahan———————— 40%

Kreditlərin seçilməsi müəyyən mənada sərbəstdır, məsələn ibtidai təhsil fakultəsində tələbə əvvəlcə ədəbiyyat, sonra isə riyaziyyat krediti götürə bilər və əksinə. Sadəcə bu zaman ardıcıllıq gözlənilməlidir. Təbii ki, riyaziyyat 1, riyaziyyat 2-dən əvvəl götürülür. Bəzi kreditlər məcburi olduğu halda, bəziləri tələbənin arzusu ilə seçilir.

Bu sistem Azərbaycanda (eləcə də keçmiş sovet respublikasında) aspiranturada təhsil zamanı minimum imtahanları şəklində mövcud idi. Aspirant(disertant) 4 minimum imtahanlarını istədiyi

ardıcıllıqla, istədiyi vaxt verə bilərdi. Təkcə ixtisas minimumu axırda verilirdi (fəlsəfə, xarici dil, informatika ixtisas).

### IV. Mobilliyin təmin olunması

Akademik mobillik – ali məktəbin tələbələrinin (başlıca olaraq), müəllimlərin, inzibati-idarə heyətinin təcrübə məqsədi ilə, öz ali məktəbində ala bilmədiyi imkanları almaq məqsədilə, milli qapalılığı aradan qaldıraraq ümumavropa perspektivlərini almaq üçün bir ali məktəbdən başqasına yerdəyişməsidir. Boloniya deklorasiyasının tövsiyələrinə əsasən, hər bir tələbənin bir və ya bir neçə semestri başqa ali məktəbdə (yaxşı olar ki, xarici ölkədə) keçirməyi arzuolunandır. Azərbaycanda bu barədə 2007-2015-ci illəri əhatə edən geniş dövlət proqramı vardır. Bu proqrama əsasən yüzlərlə tələbə xarici ali məktəblərdə təhsilini davam etdirərək vətənə qayıdır və işlə təmin olunurlar.

### V. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi

Bu problem Boloniya prosesində necə əks olunur?

Hər şeydən əvvəl təhsil nazirliyi tərəfindən nəzarət gücləndirilməlidir və əlavə olaraq ictimai təşkilatlar, sovetlər, assosiasiyalar tərəfindən nəzarət funksiyaları yerinə yetirilməlidir. Ancaq ən başlıcası ali məktəblərin özünün daxili nəzarətini möhkəmləndirən aralıq nəticələrin monitorinqini keçirmək önəmlidir. Elə bir şərait yaradılmalıdır ki, müəllim keyfiyyətli tədris etsin, tələbələr isə yaxşı oxusun.

Eləcə də təhsiin keyfiyyətini yüksəltmək üçün Boloniya prosesinin strukturları ilə geniş əməkdaşlıq etmək lazımdır.

### VI. Ali təhsil sahəsində ixtisasların və uyğun sənədlərin qarşılıqlı tanınması, ali məktəblərin muxtariyyətinin təmin olunması

Mahiyyət ondan ibarətdir ki bakalavr diplomu almış məzun Boloniya prosesinə qoşulmuş ölkələrin birində müəyyən işə qəbul oluna bilər və ya magistraturada təhsilini davam etdirə bilər, başqa sözlə bakalavra verilmiş bütün hüquqlardan istifadə edə bilər. Hələ Boloniya deklorasiyası yaranmamışdan əvvəl Avropa ölkələrinin əksəriyyəti, eləcə də Rusiya, ABŞ, Kanada, Avstraliya, Azərbaycan, Türkiyə və s. Lissabon konvensiyasını - Avropa regionunda ali təhsil ixtisaslarının tanınması Konvensiyasını imzalamışdılar(Lissabon.11 aprel 1997). Lissabon Konvensiyası iştirakçı ölkələrə akademik dərəcələrin və uyğun sənədlərin tanınmasını tövsiyə edir.

Ali məktəblərin muxtariyyəti dedikdə isə onların səlahiyyətinə aid olan məsələləri həll etməkdə onların müstəqilliyidir. Əgər təsisçi (dövlət və ya hüquqi şəxs) ali məktəbin maliyyələşdirilməsi və onun fəaliyyəti üçün öz vəzifəsini yerinə yetirirsə, təhsilin məzmunu, təlim metodikası, ştat cədvəli və s. məsələləri ali məktəb müstəqil həll edir (Təbii ki, təhsil standartlarına uyğun olaraq)

### VII. Doktorantura təhsili

Doktoranturanın (keçmiş aspiranturanın) ali təhsilin 3-cü pilləsi kimi Boloniya prosesinə daxil edilməsi bir qədər sonra baş tutmuşdur. Bir çox ölkələrdə doktorantura bir pilləli olduğu halda "Təhsil haqqında qanun"a əsasən Azərbaycanda doktorantura ikipilləlidir. Birinci doktorluq dərəcəci fəlsəfə doktoru (PHD), ikinci dərəcə isə elmlər doktoru adlanır Bir çox ölkələrdə konkter elm sahəsini əlavə etməklə fəlsəfə doktoru dərəcəsi təsbit edilməklə ikinci doktorluq dərəcəsi artıq ləğv olunmuşdur. Rusiya, Finlandiya, Monqolustan və bir çox keçmiş sovet respublikalarında, eləcə də Azərbaycanda ikinci doktorluq dərəcəsi saxlanılmaqdadır.

### VIII. "Ömür boyu təhsil"

"Ömür boyu təhsil" sistemi dedikdə nə başa düşülür?

Qeyd olunduğu kimi, bizim dövr üçün elm tez bir müddətdə köhnəlir, deməli həm də yeniləşir,insan ali məktəbdə aldığı təhsillə, o nə qədər keyfiyyətli olsa belə kifayətlənə bilməz, o daim öz üzərində çalışmalı, elmdə öz ixtisasına aid yenilikləri mənimsəməlidir, ömür boyu öz biliklərini genişləndirməlidir. Öz peşə bilikləri ilə bərabər informatika, iqtisadiyyat, hüquq və s. elmlərdən də xəbərdar olmalıdır.

Ömür boyu təhsilin əlamətləri sovet dövründə ixtisasartırma sistemi şəklində, bəzən də ikinci təhsil şəklində özünü göstərirdi.Azərbaycan respublikasında Müəllimləri Təkmilləşdirmə İnstitutu təhsil işçilərinin öz ixtisaslarını artırması üçün geniş şərait yaradır.

### IX. Təhsilin cazibədarlığının yüksəldilməsi və Avropa dəyərlərinə yönüm

Qloballaşma prosesləri genişləndikcə dünya dövlətləri iqtisadi, siyasi və digər münasibətlərdə bir-birindən daha çox asılı olurlar. Bunun alternativi olan təcrid olunma isə heç vaxt müsbət nəticələr verməmişdir və qloballaşma dedikdə bəzən bu söz amerikalaşma kimi başa düşülür. Təhsildə ideallaşdırma isə durğunluğa gətirir. Hər bir mədəniyyətin özünəməxsus xüsusiyyətləri var, hər bir millətin öz milli təhsil ənənələri var, dünya təhsili xəzinəsinə öz töhvəsi var. Qloballaşma adı altında bir mədəniyyətin belə "yaddan" çıxması beynəlxalq fəlakətdir. Boloniya prinsipinə görə hər bir milli təhsil (sistemi) ümumavropa təhsilinin bir hissəsiir.

### X. Ümumavropa təhsil məkanı və tədqiqat məkanı

Boloniya prosesi elmə marağın azalmasına səbəb ola bilərmi?

Ali məktəbin əsas orientasiyası mütəxəssis hazırlamaqdır. Elmi işlərlə əsasən elmi-tədqiqat institutları məşğul olur. Ancaq univerisitet müəllimi eyni zamanda elmi işçidir, alimdir, tədqiqatçıdır. Institut müəllimi 6 saatlıq iş gününün 3 saatını məşğələlərə və onlara hazırlaşmağa, digər üç saatını isə elmi işə sərf edir. Tələbə öz elmi biliklərinin bir hissəsini "ilk mənbələrdən"- müəllimdən almaqla müəllimin rəhbərliyi ilə ilk elmi-tədqiqat vərdişləri qazanır.Kurs və diplom işləri, tələbə elmi cəmiyyətlərində iştirak bunun formalarıdır. Tələbə öz elminin, ixtisasının strukturunu bilməklə elmi biliklər məntiqinə, tədqiqat məntiqinə, eksperiment məntiqinə yiyələnir. Boloniya prosesi nəinki bunlarla ziddiyyət təşkil edir, əksinə müəllimlərin rəqabət şəraitində olmasını tövsiyə edir, onlar öz kurslarını tələbə üçün maraqlı etməyə çalışmalıdırlar.

Qərbi Avropa ölkələrində elm və alimlər universitetlərdə toplaşmışlar. Ona görə də Boloniya prosesinin inkişafı təbii olaraq ümumavropa təhsil məkanının ümumavropa təhsil və tədqiqat məkanına çevrilməsi haqqında tezislərin yaranmasına gətirib çıxartdı.

Azərbaycanda da hər bir Universitetdə elmi-tədqiqatla məşğul olan struktur- elmi hissə və elmi şuralar vardır.Yüzlərlə mütəxəssis universitetlərdə tədqiqat işi ilə məşğul olaraq elmi dərəcələr alır.

### BOLONİYA PROSESİNİN İDARƏ STRUKTURU

Boloniya prosesinin strukturu və inkişafı məsələlərini həll edən ali orqan iştirakçı ölkələrin təhsil nazirlərinin iki ildə bir dəfə toplaşan iclasıdır. İclaslar arası dövrdə idarəedici orqan Boloniya işçi qrupudur. Hər bir iştirakçı ölkə biri təhsil nazirliyindən, biri milli rektorlar şurasından (ittifaqından), biri isə milli tələbə assossiasiyasından olmaqla 3 nəfər nümayəndə ilə təmsil olunur. Boloniya qrupunda sədrlik həmin vaxt Avropa ittifaqında sədrlik edən ölkənin nümayəndəsinə həvalə olunur. Qrup Boloniya problemləri üzrə büynəlxalq tematik seminarların qrafikini təsdiq edir, nazirlərin növbəti iclası üçün informasiyalar toplayır, iştirakçı ölkələrin iclasa çıxarmazdan əvvəl məruzələrini müzakirə edir və s. Boloniya qrupundan 1 il müddətinə sədr və müavindən ibarət -o həm də növbəti nazirlər iclasının sədri olmalıdır- şura seçilir və nəhayət növbəti nazirlər iclasının yeri müəyyənləşdirilir. Texniki və təşkilati işləri yerinə yetirən, Qrupun və Şuranın fəaliyyətini təmin edən Katiblik formalaşır.

### Ədəbiyyat:

1. Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında Konvensiya, 11 aprel 1997-ci il.

2. Boloniya prosesi (deklorasiya), 19 iyun 1999-cu il.

3."Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 19 iyun 2009-cu il, № 833.

4. Azərbaycan Respublikası Prezidentinin 15 iyun 1999-cu il tarixli 168 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı".

### Болонский процесс и Болонская декларация

### Резюме

В статье говорится о Болонском процессе, в частности о целях Болонского процесса. В Болонской декларации указаны задачи, решение которых, как предполагается, будет способствовать единению Европы в области образования. Это введение общепонятных, сравнимых квалификаций в области высшего образования, переход на двухступенчатую систему высшего образования (бакалавриат – магистратура), введение оценки трудоемкости (курсов, программ, нагрузки) в терминах зачетных единиц (кредитов) и отражение учебной программы в приложении к диплому, образец которого разработан ЮНЕСКО, повышение мобильности студентов, взаимное признание квалификаций и соответствующих документов в области высшего образования, обеспечение автономности вузов.

### Bolonsky process and the Bolonsky declaration

### The resume

In article it is spoken about Bolonsky process, in particular about the purposes of Bolonsky process. In the Bolonsky declaration are specified the problems which decision as it is supposed, will promote a unification of Europe in a sphere of education. This introduction of easily understood, comparable qualifications in the field of higher education, transition to two-level system of higher education (a bachelor degree - a magistracy), introduction of an estimation of labour input (courses, programs, loading) in terms of test units (credits) and curriculum reflexion in the appendix to the diploma which sample is developed UNESCO, increase of mobility of students, maintenance of necessary quality of higher education, a mutual recognition of qualifications and corresponding documents in the field of higher education, maintenance of autonomy of high schools.